# Azərbaycan heyəti Daşkənddə TÜRKSOY-un yubileyində



**TÜRKSOY-un yaradılmasının 30 illiyi münasibətilə Özbəkistanda keçirilən tədbirlərdə iştirak edən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Daşkənd şəhərindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində olub.**

Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevə həsr olunmuş fotosərgi və Mədəniyyət Mərkəzinin layihələri ilə çap edilmiş kitablar, ulu öndərə həsr edilmiş nəşrlərdən ibarət sərgi ilə tanış olan nazir gerçəkləşdirilən layihələrini önəmini vurğulayıb, bu sahədə işlərin genişləndirilməsinin zəruriliyini bildirib. Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyində bildirilib ki, burada ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatların, fotostendlərin nümayişi ilə yanaşı, müxtəlif tədbirlər də keçirilir.

Nümayəndə heyəti mərkəzdə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə yaradılmış Azərbaycan Dövlətçiliyi və Azərbaycan–Özbəkistan Dostluq muzeylərinə də baxıb, qardaş xalqların ortaq tarixi köklərini, milli-mənəvi dəyərlərini əks etdirən eksponatlar, bu ölkədə tanınmış soydaşlarımızdan bəhs edən aid guşə, "Azərbaycan xalçaları salonu" ilə tanış olub. Nazirə mərkəzdə yaradılmış kitabxana, rəqs və rəsm dərnəkləri, Azərbaycan dili kursları barədə məlumat verilib.

Azərbaycan Mədəniyyət Mərkəzinin kollektivi ilə görüşən nazir mərkəzin fəaliyyətini yüksək qiymətləndirib və işlərində uğurlar arzulayıb.

***

**Azərbaycanın mədəniyyət nümüyəndə heyəti Daşkənddə TÜRKSOY-un 30 illiyi ilə bağlı keçirilən tədbirlərdə də iştirak edib.**

Dövlət Tərbiqi İncəsənət Muzeyində Türk dünyası rəssamlarının və sənətkarlarının "Türk dünyası" adlı sərgidə Özbəkistanın mədəniyyət və turizm naziri Azadbek Nazarbekov, TÜRKSOY-un Baş katibi Sultan Rayev, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər türkdilli dövlətlərin mədəniyyət nazirləri, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, rəssamlar, sənətkarlar iştirak ediblər.

Muzeyin həyətində təşkil edilən sərgidə Özbəkistanla yanaşı, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Macarıstan rəssamlarının və tətbiqi sənət ustalarının əl işləri nümayiş etdirilib, hər ölkənin milli mətbəxinə dair guşəyə baxış keçirilib. Mətbəx guşəsində Azərbaycan, Özbəkistan, Türkiyə, Qırğızıstan, Qazaxıstan, Türkmənistanın milli yeməkləri təqdim edilib.

Sərginin açılışında Azadbek Nazarbekov TÜRKSOY-un Türk dünyasının mədəniyyət sahəsinin inkişafına böyük töhfələr verdiyini vurğulayıb. Sultan Rayev bildirib ki, TÜRKSOY yarandığı gündən Türk dünyası arasında əlaqələrin genişləndirilməsi istiqamətində çoxlu layihə həyata keçirib. Baş katib deyib ki, bundan sonra da Türk dünyası arasında mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı müxtəlif layihələrin həyata keçirilməsi davam etdiriləcək.

Sonra qonaqlar sərgiyə və muzeyin eksponatlarına baxıblar.

***Qulu KƏNGƏRLİ,***

**Daşkənd**

